# Yaşıllaşdırma Təsərrüfatı Birliyi

Bakı şəhər İcra Hakimiyyəti Yaşıllaşdırma Təsərrüfatı Birliyi Bakı şəhər İcra Hakimiyyəti Başçısının 17 oktyabr 2005-ci il tarixli 272 saylı Sərəncamı əsasında ləğv edilmiş Abadlaşdırma və Park-Bağ Təsərrüfatının İnkişafı Departamentinin hüquqi varisidir. Birlik təsərrüfat hesablı, dəyəri qismən dövlət tərəfindən maliyyələşən hüquqi şəxsdir, müstəqil balansa malikdir. Bakı şəhər İcra Hakimiyyəti tərəfindən ona verilmiş səlahiyyətlər çərçivəsində öz adından müqavilələr bağlamaq, əmlak və şəxsi qeyri-əmlak hüquqlarını əldə etmək, məsuliyyət daşımaq, məhkəmələrdə iddiaçı və yaxud cavabdeh qismində iştirak etmək, öz üzərinə öhdəliklər götürmək və vəzifə icra etmək hüququna malikdir.

Birlik istər keçmiş Sovet respublikaları və istərsə də digər xarici ölkələrdən müxtəlif əkin materialları (tinglər, ot toxumları, gül toxumları, gül ştilləri), müxtəlif avadanlıqlar və texnikalar almaq səlahiyyətinə malikdir.

Birlik Bakı şəhər İcra Hakimiyyətinin rəhbərliyi və nəzarəti altında Bakı şəhərində və Abşeron yarımadasında yaşıllaşdırma və mövcud yaşıllıqlara qulluq işlərini mərkəzləşdirilmiş qaydada həyata keçirir. Bakı şəhər İcra Hakimiyyətinin razılığı əsasında özünün törəmə müəssisələrini yaratmaq və ya ləğv etmək hüququna malikdir.

Birlik öhdəsinə düşən vəzifələri yerinə yetirmək üçün aşağıdakı müəssisə və təşkilatları öz tərkibində birləşdirir:

- “Yaşıllıqtikinti” Podrat İxtisaslaşdırılmış Təmir Tikinti Müəssisəsi
- Bitkilərin Mühafizəsi Stansiyası
- Ağac Bəzək Bitkiləri Sovxozu
- Avtomobil Nəqliyyatı İdarəsi
- Su quyularının İstismarı və Təmiri xidməti müəssisəsi

Birlik bu təşkilatların vasitəsilə Bakı şəhərində və Abşeron yarımadasında yaşıllığın inkişaf etdirilməsi, yeni bağların, bağçaların, istirahət sahələrinin, zeytun plantasiyalarının salınması, onların qorunması, onlara ziyan vuran fiziki və hüquqi şəxslər haqqında öz səlahiyyətləri çərçivəsində tədbirlər görülməsi, toxumçuluğun inkişafı, güllüklərin salınması, habelə şəhər əhalisinin gül və gül məhsulları ilə təmin edilməsi, minimal xərclərlə əmək məhsuldarlığının artırılması, əsas fondların istifadə edilməsinin yaxşılaşdırılması, əmək, material və maliyyə vasitələrinin səmərəli istifadəsini təmin edir.

## Yaşıllaşdırma Təsərrüfatı Birliyinin strukturu:

| № | Soyadı, adı, atasının adı | Vəzifəsi | Əlaqə telefonu |
|---|---|---|---|
| 1 | | Baş direktor | 440-15-34 |
| 2 | Seyidov Mirdaməd Mirhüseyn oğlu | Baş direktor müavini | 440-15-34 |
| 3 | Məmmədov Cavanşir Rza oğlu | Baş mühəndis | 440-15-34 |
| 4 | Tağıyev Oqtay Arif oğlu | Baş aqronom | 440-15-34 |
| 5 | Talıbov Kamil Səlim oğlu | İnsan resurslarının idarəedilməsi və inkişafı şöbəsinin müdiri | 440-15-34 |

**Birliyin hüquqi ünvanı: Xan Şuşinski küçəsi 63**

**Faktiki ünvanı: Muxtar Fətəliyev küçəsi 15**

**Qaynar xətt: (012) 440-15-34**

## “Yaşıllıqtikinti" Podrat İxtisaslaşdırılmış Təmir Tikinti Müəssisəsi

"Yaşıllıqtikinti" Podrat İxtisaslaşdırılmış Təmir Tikinti Müəssisənin əsas vəzifələri Birlik üzrə podrat (götürmə) iş aparmaqla Bakı şəhər İcra Hakimiyyətinin yaşıllıqlarının əsaslı təmiri, əkilmiş və yeni əkilən bitkilərə qulluq etməklə və bu sahə ilə əlaqədar digər abadlıq və tikinti işlərini həyata keçirməkdir. Müəssisə eyni zamanda şəhər ərazisində yerləşən istənilən müəssisə və təçkilatlarla müqavilə əsasında yaşıllaşdırma işlərini həyata keçirmək hüququna malikdir.

Azərbaycan Respublikası Hesablama Palatasının 9-146 saylı 30.11.2013-cü il tarixli Qərarı ilə “Yaşıllıqtikinti” PİTTM fəaliyyəti müvəqqəti dayandırılmışdır.

**Ünvan: Nizami rayonu Bəhruz Nuriyev 1/77**

## Bitkilərinin Mühafizəsi Stansiyası

Bitkilərinin Mühafizəsi Stansiyası Yaşıllaşdırma Təsərrüfatı Birliyinin rəhbərliyi və nəzarəti altında Bakı şəhəri ərazisində, eləcə də qapalı hökumət bağlarında mövcud olan yaşıllıqların xəstəlik və ziyanvericilərdən qorunmasını, budanma, formavermə və cavanlaşdırılması işlərini aqrotexniki qaydada həyata keçirir.

Bakı şəhər İcra Hakimiyyətinin 124 saylı 31.03.2016-ci il tarixli sərəncamı ilə ləğv edilib.

## Ağac Bəzək Bitkiləri Sovxozu Yaşıllaşdırma Təsərrüfatı Birliyi

Ağac Bəzək Bitkiləri Sovxozu Yaşıllaşdırma Təsərrüfatı Birliyinin rəhbərliyi və nəzarəti altında Bakı şəhəri ərazisində mövcud olan yaşıllıqların təmir edilməsi və yeni yaşıllıq sahələrinin salınması üçün tələb olunan əkin materiallarının becərilməsini mərkəzləşdirilmiş qaydada həyata keçirir.

Eyni zamanda BMS-si ləğv edildikdən sonra Bakı ərazisində mövcud olan yaşıllıqların xəstəlik və ziyanvericilərdən qorunmasını, budanma, formavermə və cavanlaşdırılması işlərini aqrotexniki qaydada həyata keçirir.

| № | Soyadı, adı, atasının adı | Vəzifəsi | Əlaqə telefonu |
|---|---|---|---|
| 1 | Əmiraslanov Əmiraslan Şəmsəddin oğlu | Direktor | |
| 2 | Hacıyev Məhəmməd Əli oğlu | Direktor müavini | |
| 3 | Məmmədov Teymur Səməd oğlu | Baş aqronom | |

**<u>İdarənin hüquqi ünvanı:</u> Xan Şuşinski küçəsi 63**

**<u>Faktiki ünvanı:</u> Muxtar Fətəliyev küçəsi 15**

## <u>Avtomobil Nəqliyyat İdarəsi</u>

İdarə fəaliyyətinin əsasında dövlət tapşırıqlarını yerinə yetirərək kənar təşkilatların yüklərini və Birliyin tabeliyində olan idarələrin yüklərinin daşınmasını təşkil edir. Bakı şəhərinin ərazisində stasionar su mənbələri olmayan yaşıllıq sahələrinin suvarma maşınları vasitəsilə suvarılmasını təmin edir.

| № | Soyadı, adı, atasının adı | Vəzifəsi | Əlaqə telefonu |
|---|---|---|---|
| 1 | Məmmədov Maşallah Əli oğlu | Direktor | |
| 2 | Mustafayev Məmməd Mahmud oğlu | Baş mühəndis | |

**<u>İdarənin hüquqi ünvanı:</u> Xan Şuşinski küçəsi 63**

**<u>Faktiki ünvanı:</u> Yeni Suraxanı qəs, Xanlar Ələkbərov küçəsi, 2-ci mədən**

## <u>Su quyularının İstismarı və Təmiri Xidməti müəssisəsi</u>

Su quyularının İstismarı və Təmiri Xidməti müəssisəsi Yaşıllaşdırma Təsərrüfatı Birliyinin rəhbərliyi və nəzarəti altında Bakı şəhəri ərazisindəki yaşıllıqların su ilə təmini, yeni su xətlərinin çəkilməsi və artezian quyularının qazılmasını həyata keçirir.

| № | Soyadı, adı, atasının adı | Vəzifəsi | Əlaqə telefonu |
|---|---|---|---|
| 1 | Salahov Yaşar Hüseyn oğlu | Rəis | 581-20-25 |

**<u>İdarənin hüquqi ünvanı:</u> Xan Şuşinski küçəsi 63**

**<u>Faktiki ünvanı:</u> 20-ci sahə, Bibiheybət yolu 4**